# Şərqşünaslıq İnstitutunda Nizami Gəncəvinin 880 illiyi münasibəti ilə seminarlar keçirilib

**Vüqar Məmmədov,**
*filologiya üzrə fəlsəfə doktoru*

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibəti ilə bir sıra elmi seminarlar keçirilib.

Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Mehdi Kazımovun rəhbərliyi altında təşkil edilən seminarlardan birincisi martın 3-də təşkil edilib.

"Nizami və Şərq ədəbiyyatı" mövzusunda keçirilən seminarı giriş sözü ilə açan institutun direktoru, akademik Gövhər Baxşəliyeva bildirib ki, 2021-ci il Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən "Nizami Gəncəvi ili" elan edilib və bununla əlaqədar AMEA-da tədbirlər planlaşdırılaraq həyata keçirilir. G.Baxşəliyeva Şərqşünaslıq İnstitutunda da



Nizami Gəncəvinin yaradıcılığına dair tədqiqatların aparılacağını, kitabların nəşr ediləcəyini, konfrans, elmi sessiya və seminarların keçiriləcəyini qeyd edib.

Seminarda Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Mehdi Kazımov "Nizami və Şərq ədəbiyyatı" mövzusunda məruzə edib. Məruzəçi bildirib ki, Nizaminin ən möhtəşəm əsərləri olan, dünya ədəbiyyatı tarixinə "Xəmsə" adı ilə daxil olmuş əsərləri sadəcə Şərqdə epik yaradıcılığın inkişafına güclü təkan verməklə qalmamış, eyni zamanda Nizami ədəbi məktəbi kimi bir fenomenin ortaya çıxması ilə nəticələnmişdi. Bu məktəbin əsasını Nizami "Xəmsə"sinə eyni ad altında nəzirələr təşkil edirdi. Bu ənənə bütün orta əsrlər boyu və hətta daha sonrakı dönəmlərdə də davam etmişdi. M.Kazımov qeyd edib ki, Nizaminin şeirlərindən ilham alan yüzlərlə şair ona nəzirə yazaraq öz poetik imkanlarını və qələmlərinin gücünü sınamağa, Nizami ilə yarışmağa çalışmışdır. Onlardan heç biri, hətta Şərqin korifeylərindən olan Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami və Əlişir Nəvai belə bu Azərbaycan şairinin səviyyəsinə yüksələ bilməmişdir. Həmin nəzirələrdən ətraflı danışan məruzəçi onların müəlliflərinin Şərq ədəbiyyatında özünəməxsus bir bədii təbəqə kimi mövqeyi olan nəzirə ədəbiyyatı formalaşdırdıqlarını deyib.



Aprelin 15-də keçirilən növbəti seminar "Nizami leksikasının tədqiqinə dair (M.Məmmədovanın tədqiqatları əsasında)" mövzusunda olub.

Tədbiri giriş sözü ilə professor Mehdi Kazımov açıb. Seminarda Şərqşünaslıq İnstitutun İran filologiyası şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Şəmsi Pənahoğlu "Nizami leksikasının tədqiqinə dair (M.Məmmədovanın tədqiqatları əsasında)" mövzusunda məruzə ilə çıxış edib. Tanınmış şərqşünas alim, pedaqoq Mənzərə Məmmədovanın Nizami Gəncəvi dilinin leksikasına həsr olunan tədqiqatlarından ətraflı danışan məruzəçi bildirib ki, dünya nizamişünaslığında Nizaminin leksikası ilə bağlı ən müfəssəl elmi-tədqiqat işi məhz şairin Vətənində- Azərbaycanda M.Məmmədova tərəfindən aparılıb. M.Məmmədovanın tədqiqatları "XI-XVII əsr fars dili izahlı lüğətlərinin əsas tərtib prinsipləri" monoqrafiyasında, eləcə də "Nizami Gəncəvi dilinin leksik üslubu ("İsgəndərnamə" üzrə)" və 2 cildlik "Nizami Gəncəvi dilinin lüğəti ("Şərəfnamə" üzrə)"əsərlərində ümumiləşdirilib.

İyunun 2-də növbəti seminar keçirilib. Tədbiri giriş sözü ilə açan professor Mehdi Kazımov bildirib ki, seminar Nizaminin türk şairi Əhməd Rıdvanın yaradıcılığına təsirinə həsr olunub.

Seminarda Şərqşünaslıq İnstitutunun Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri şöbəsinin elmi işçisi Aygün Yusubova "Türk şairi Əhməd Rıdvanın yaradıcılığına Nizami



ədəbi məktəbinin təsiri" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" əsəri ilə ilk dəfə olaraq Yaxın Şərqdə romantik poemanın əsasını qoymuş bir sənətkar olduğunu söyləyərək, əsrlər boyu müxtəlif dillərə tərcümə olunmuş bu əsərə türk divan şairləri tərəfindən dəfələrlə müraciət edilmişdir. Bu sənətkarlardan birinin də XVI əsr türk şairi Əhməd Rıdvan olduğunu qeyd edən A.Yusubova, şairin Nizami yaradıcılığına yazdığı nəzirələrdən geniş söhbət açaraq, bu təsirin xüsusiyyətlərindən bəhs edib.



Sentyabrın 17-dəki növbəti seminarı giriş sözü ilə açan institutun direktoru, akademik Gövhər Baxşəliyeva budəfəki seminarın "Nizami nəzmində cəvahirat adlarının linqvopoetik funksiyaları" mövzusunda olduğunu bildirib. Şərqşünaslıq İnstitutunun "Mənbəşünaslıq və yazılı abidələrin tədqiqi və nəşri" şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor Mehdi Kazımov bildirib ki, Nizami dühası o qədər böyükdür ki, bu istiqamətdə daima araşdırmalar aparılmalıdır.

Seminarda AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Komparativistika və bədii tərcümələr şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Şəfəq Əlibəyli "Nizami nəzmində cəvahirat adlarının linqvopoetik funksiyaları" mövzusunda məruzə edib.

Ş.Əlibəyli məruzəsində bildirib ki, Cəvahirat adları maraqlı bir söz təbəqəsi kimi Nizami nəzmində geniş yer tutaraq, almaz, bicadə (yaqut növü), cəz (qara xal-xal daş), dürr, əqiq, firuzə, yaqut, kəhrəba, lacivərd, ləl, loulou (xırda mirvari) mirvari, mərcan, yaqut, zebərcəd (sarı yaqut), zümrüd kimi nominasiyaları təşkil edir. Nizami Gəncəvi qiymətli daş adlarını nəzmə çəkərək, əsərlərində zəngin poetizmlər təbəqəsi yaratmış, bu sözlər də öz parlaqlığı ilə Nizaminin söz inciləri sırasına düzülmüşlər. Şair qiymətli daşların rəng, keyfiyyət, parlaqlıq və məkanını müxtəlif mövzularda nəzmə çəkərək, poetik mətnin təşkilində dəfələrlə onlara müraciət etmiş, gözəl məcazlar yaratmışdır.

Qeyd edilən daş adları ilə bağlı Nizami yaradıcılığından müxtəlif misallar çəkən məruzəçi Nizami nəzmində qiymətli daş adlarının səciyyəvi olan, diqqəti cəlb edən leksik–semantik və üslubi xüsusiyyətlərindən geniş bəhs edib.

Məruzədə Nizami yaradıcılığında rənglərin, o cümlədən bitkilərin rənginin qiymətli daş adları ilə ifadəsindən, bu cür adların yer aldığı izafət tipli təşbehlərdən, onların sinonimliyindən istifadə edilməsindən, məkanla bağlı müxtəlif ifadələrdə işlənərək, ənənəvi təşbehlər yaratmasından, tərkibində belə sözlərin olduğu mürəkkəb sözlərdən, Nizami nəzminə xüsusi rövnəq verən qiymətli daş adlarının yer aldığı səciyyəvi poetik fiqurlardan, cəvahirat adlarının bədən üzvlərinin adlarını bildirən sözlərlə tənasübdə işlənərək məcaz yaratmasından və digər məqamlardan danışılıb.

Bütün seminarlarda sonda məruzə ətrafında müzakirə aparılıb, məruzəçilər seminar iştirakçılarının suallarını cavablandırıblar.